# KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ
## VƏ ONUN BİBLİOQRAFİK FƏALİYYƏTİN İNKİŞAFINDA ROLU

Kitabxanaçılıq şöbəsi 1962-ci il oktyabr ayının 1-də müstəqil fakültəyə çevrilmişdir. Universitetdə müstəqil kitabxanaçılıq fakültəsinin yaranması, şübhəsiz ki, respublikanın mədəni, tədris və elmi həyatında çox mühüm hadisə idi. Fakültəyə ilk dekan prof. A.A.Xələfov təyin edilmişdir. Kitabxanaçılıq şöbəsinin müstəqil fakültəyə çevrilməsində onun ilk dekanı, Azərbaycan Respublikasının əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun böyük xidməti olmuşdur. O, 25 il bu fakültənin dekanı olmuşdur.

Kitabxanaçılıq-informasiya fakültəsində kadr hazırlığı üç pilləli təhsil formasında həyata keçirilir. Fakültədə 2 ixtisas üzrə kadr hazırlanır: 1. Kitabxanaçı-biblioqraf, 2. Kitabşünas-nəşriyyat işi və redaktəetmə ixtisasları.

Fakültədə 50 nəfərə qədər işçi çalışır. Bunlardan 30 nəfəri professor-müəllim, qalan 20 nəfər laborant və texniki işçilərdir. 5 nəfər professor, 11 nəfər dosent, 2 nəfəri isə elmlər namizədidir. Fakültədə aspirantura yolu ilə də kadr hazırlığı davam etdirilir. Fakültədə 4 ixtisas kafedrası, 3 tədris laboratoriyası fəaliyyət göstərir.

Fakültənin məzunları respublikanın kitabxana-biblioqrafiya müəssisələrində, M.F.Axundov adına Milli Kitabxanada, Respublika Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında, Respublika Elmi Texniki Kitabxanasında, respublika əhəmiyyətli digər iri elmi və xüsusi kitabxanalarında, o cümlədən istehsalatın, təsərrüfatın və mədəniyyətin müxtəlif sahələrində müvəffəqiyyətlə çalışırlar. Onların içərisində əməkdar elm xadimi, əməkdar mədəniyyət işçisi olanlar da vardır.

Fakültənin məzunlarından şair Zəlimxan Yaqub, əməkdar mədəniyyət işçisi Şakir Yaqubov, yazıçı Əlisa Nicat, şair Məmməd İsmayıl və bir çox başqaları ədəbiyyat və mətbuat sahəsində tanınmış şəxsiyyətlərdəndir.

Azərbaycanda ali kitabxanaçılıq təhsilinin nailiyyətlərindən danışarkən həmin fakültənin universitetdə yaranmasında və formalaşmasında mühüm xidmətləri olan xalq yazıçısı Süleyman Rəhimovun, akademiklərdən Abdulla Qarayevin, Şəfaət Mehdiyevin, ilk ixtisas müəllimləri Ə.Qəhrəmanovun, H.Tağıyevin, M.Səmədovanın, professor A.Xələfovun, professor Z.Əliyevin və başqalarının adlarını böyük şərəf və iftixarla çəkmək lazımdır. Qeyd etmək lazımdır ki, prof. Z.H.Əliyev 10 il fakültənin dekanı olmuşdur.

Fakültəyə 1993-cü ildən professor Xəlil İsmayılov rəhbərlik edir. Professor Xəlil İsmayılovun öz təşəbbüsü ilə Azərbaycanda 1997-ci ildən nəşr olunan yeganə ixtisas məcmuəsinin – «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-







*Bakı Dövlət Universitetinin ən böyük, peşə yönümü baxımından özünəməxsusluğu ilə seçilən fakültələrindən biri də kitabxanaçılıq-informasiya fakültəsidir. Kitabxanaçılıq-informasiya fakültəsi 60 il ərzində 6 mindən çox yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf və kitabşünas kadrlar hazırlamışdır.*

*1947-1948-ci tədris ilindən Bakı Dövlət Universitetinin filologiya fakültəsi nəzdində kitabxanaçılıq şöbəsi fəaliyyətə başlamışdır. Şöbədə 1955-ci ildə qiyabi Azərbaycan, 1959-cu ildə isə qiyabi rus bölməsi açılmışdır. 1958-ci ildə filologiya fakültəsinin şərq şöbəsi müstəqil fakültəyə çevrildiyi zaman kitabxanaçılıq şöbəsi müvəqqəti olaraq şərq fakültəsinin nəzdinə verilmişdir.*

nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru kimi də mühüm bir fəaliyyət sahəsi ilə məşğuldur. Məhz onun ümumi rəhbərliyi ilə bu jurnalın hər il 9 çap vərəqi həcmində 2 nömrəsi nəşr olunur ki, burada kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, nəşriyyat işi və informasiya elmlərinin aktual problemləri ilə bağlı tanınmış alimlərin və digər mütəxəssislərin elmi məqalələri işıq üzü görür.

Professor X.İsmayılov həmçinin 1999-cu ildə yaradılmış Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti kimi çoxsahəli iş aparır. O, bu qurumun xətti ilə dünyanın bir sıra inkişaf etmiş ölkələrində, o cümlədən, ABŞ-da, Fransada, Belçikada, Norveçdə, Koreyada, həmçinin Rusiyada, Gürcüstanda beynəlxalq elmi konfranslarda Azərbaycan kitabxana ictimaiyyətini layiqincə təmsil etmiş, elm, təhsil, maarif və kitabxana-informasiya problemləri üzrə maraqlı məruzələrlə çıxış etmiş, həmin mövzular ətrafında aparılan müzakirələrdə fəallıq göstərmişdir.

Tədrisin yüksək səviyyədə təşkilində 3 tədris laboratoriyası, kitabxanaçılıq-informasiya fakültəsi nəzdində «Kitabxana proseslərinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyası və fakültədə fəaliyyət göstərən geniş kompüter zalı mühüm rol oynayır.

2003-cü ildə Kitabxanaçılıq-informasiya fakültəsinin adında olan dəyişiklik təkcə ad dəyişikliyi deyil, kadr hazırlığında baş verən keyfiyyət dəyişikliyi ilə bağlı olmuşdur. Yeni fənlər: «Kitabxana proseslərinin kompüterləşdirilməsinin əsasları», «Kitabxana-informasiya fəaliyyətinin texniki vasitələri», «Kitabxanaçılıq-informatikası», «Sosial proseslər və kitabxanalar» və s. tədris olunmağa başlanmışdır.

Hazırda fakültədə bakalavr pilləsi üzrə 430 tələbə təhsil alır. Onlardan 279 nəfəri əyani, 151 nəfəri qiyabi şöbəsinin tələbələridir. Magistr pilləsində 40 nəfər magistrant təhsil alır. Onlardan 23 nəfəri əyani, 17 nəfəri qiyabi təhsil alır. Fakültədə 3 aspirant və 8 dissertant elmi fəaliyyətini davam etdirir. Fakültədə tədrisin düzgün və elmi formada təş-

kilində fakültə metodşurası və fakültə elmi şurası fəaliyyət göstərir.

Bakalavr pilləsi üzrə HS 151700 kitabxanaşünaslıq-biblioqrafiyaşünaslıq, HS 061000 kitabşünaslıq istiqamətində, magistratura üzrə HSM 150017 kitabxanaşünaslıq, HSM 150020 biblioqrafiyaşünaslıq, HSM 150023 kitabxana fondlarının formalaşması və istifadəsi, HSM 060005 nəşriyyat işi və redaktəetmə ixtisası üzrə kadr hazırlanır.

2000-ci ildən bəri fakültədə 1 doktorluq dissertasiyası, 7 namizədlik dissertasiyası müdafiə edilmişdir. Hazırda isə 6 nəfər əməkdaşın dissertasiya işi yekunlaşmaq üzrədir.

Kitabxanaçılıq-informasiya fakültəsinin müvafiq kafedralarında bakalavr və magistratura təhsil pilləsi üzrə tədris olunan fənlərin 95%-i proqramlarla əhatə olunmuşdur. Hazırda ayrı-ayrı fənlər üzrə dərsliklər hazırlanıb tələbələrin istifadəsinə verilir. Bu sahədə əməkdar elm xadimi, prof. A.A.Xələfovun nəşr etdirdiyi «Kitabxanaşünaslığa giriş», «Azərbaycanda kitabxana işinin tarixi», «Kitabxanaların kompüterləşdirilməsinin əsasları», prof. X.İ.İsmayılovun «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi», «Kitabxana menecmentinin əsasları», prof. Z.H. Əliyevin «Ümumi biblioqrafiyaşünaslıq», «Azərbaycan biblioqrafiyasının tarixi», prof. B.V.Allahverdiyevin «Ümumi kitab tarixi», prof. İ.Ö.Vəliyevin «Ədəbi-bədii və uşaq kitablarının redaktəsi», «Redaktəetmənin əsasları» və s. adlı dərsliklər tələbələrin istifadəsinə verilmişdir.

Fakültədə müntəzəm olaraq bakalavr, magistr pilləsində müxtəlif məzmunlu konfranslar təşkil edilir. Müxtəlif kafedralar üzrə TEC xətti ilə keçirilən dərnəklərdə tələbələr maraqlı məruzələrlə çıxış edirlər.

Son illərdə akademik, BDU-nun rektoru, millət vəkili Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Şöhrət ordenli, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfovun və biblioqrafiyaşünaslıq kafedrasının müəllimi, dekan müavini Solmaz Sadıqovanın birgə tərtib etdikləri (2003) Azərbaycan, rus və ingilis dillərində «Dünyanın görkəmli dövlət xadimləri» seriyasında çap olunmuş «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» adlı əsaslı biblioqrafik əsər həsr olunduğu şəxsiyyətin böyüklüyünə, nüfuzuna, onun çox zəngin dövlətçilik və ictimai fəaliyyətin ədəbi məhsulunun əks etdirməsinə, tərtibat strukturundakı yeniliklərinə görə mütəxəssislərin qənaətinə görə Azərbaycan biblioqrafik vəsaitlər sisteminin zirvəsində durur.

Qeyd etmək lazımdır ki, bu il fakültənin 60 illiyi, «Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının müstəqillik dövründə yeni tərtibatla çıxmasının 10 illiyi qeyd olunur. Fakültənin yubileyinə həsr olunmuş biblioqrafik məlumat kitabı isə çapa hazırdır.

**Solmaz SADIQOVA,**
**Bakı Dövlət Universiteti kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini**